AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

**MUSA FEHRUZ OĞLU İSMAYILOV**

# ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZA KÖÇÜRÜLMƏSİNİN ETNO-SİYASİ NƏTİCƏLƏRİ

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2016**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İsmayıl Muxtar oğlu Hacıyev**
AMEA-nın həqiqi üzvü

**Rəsmi opponentlər:** **Oqtay Balaqədəş oğlu Sultanov**
Tarix üzrə elmlər doktoru, professor

**Elman Yusif oğlu Cəfərli**
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsi**

Müdafiə 27 fevral 2016-cı il tarixdə saat $13^{00}$-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" yanvar 2016-cı ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya Şurasının elmi katibi:** **E.A.ŞIXƏLİYEV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX əsrdə – XXI əsrin əvvəllərində Qafqazda baş verən çoxşaxəli proseslər böyük və iri regional dövlətlərin yerli siyasi strukturlarla, həmçinin Qafqaz regionu üçün taleyüklü əhəmiyyət kəsb edən geosiyasi hadisələrlə əlaqəsinin xarakteri ilə bağlı olan bir sıra mərhələlərdən ibarətdir. Bu hadisələr arasında XIX əsrin ilk otuz ili ərzində ermənilərin Qafqaza kütləvi şəkildə köçürülməsi və bunun yerli əhali, ilk növbədə müsəlmanlar üçün mənfi nəticələr verməsi xüsusi yer tutur.

Avropadan Ön Asiyaya, o cümlədən Qafqaza əsrlər boyu uzun və çətin yol keçmiş ermənilər daima təmasda olduqları dövlətlər, qəbilə və etnoslar içərisində narazılıqlar törətmişlər. Belə ki, Balkanlarda itirdikləri torpaqlar müqabilində Roma, Parfiya, Sasani, Bizans imperiyaları, Ərəb xilafəti, Səlcuq, Monqol, Teymuri, Səfəvi, İran və Osmanlı dövlətləri ərazilərində ermənilər özlərinə dövlət qurmağa cəhdlər göstərmişlər. Erməni "tarixçiləri" həmin ərazilərin ermənilərə məxsus olması barədə çoxlu "tarixi əsərlər" yazmışlar. Hazırda ermənilərin tarixində çoxlu sayda "ermənistan"ın "mövcud olması" bunun bariz nümunəsidir.[1] Bu, "erməni marşrutu"nu Şərq istiqamətində – Balkanlardan, yəni Avropadan Anadoluya və Cənubi Qafqazadək izləməyə imkan verir.[2]

Yuxarıda qeyd edilənlərə əmin olmaq üçün erməniliyin Qərb apologeti D.Lenqin əsərinə istinad etmək kifayətdir. O, yazır: "Yunan yazıçısı Strabon erməniləri Yunanıstanın şimalında yerləşən Fessaliya vilayəti ilə əlaqələndirir. O, həmçinin əlavə edir ki, fessaliyalı Armenus arqonavt Yazon və onun yoldaşları ilə birlikdə bu ölkəyə gələrək oraya öz adını verib. Frigiyalılara gəldikdə isə, Strabon onların Frakiya mənşəli olduqlarını və Anadoluya müasir Bolqarıstan ərazisindən Troya müharibəsindən sonra

---

[1] История армянского народа. Ереван, 1980, с. 34-36, 68, 259; Саркисян Г.Х., Худавердян К.С., Юзбашян К.Н. Потомки Хайка. Очерк истории и культуры Армении с древнейших времён до становления Третьей республики. Ереван, 1998, с. 28, 76, 106, 150, 153, 164, 199, карты на с. 24–25, 72-73, 107; Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX–XI веков. М., 1988, с. 22, 156; Арутюнова-Фиданян В.А. Повествование о делах армянских. VII век. Москва, 2004, с. 22, 29, 58, 67, 69-72, 96, 97, 107, 108, 185, 204, 213, 218, 219, 233, 242, 244, 247, 250, карта форзацев; Еремян С.Т. Армения по «Ашхарацуйц»у (армянской географии VII века) (Опыт реконструкции армянской карты VII века на современной картографической основе). Минск, 1961; Айвазян С. Исторические карты Армении. Ереван, 2003; Даниелян А.П. Армения. Исторический атлас. Москва, 2003; Hewsen R.H. Armenia. A Historical Atlas. Chicago-London, The University of Chicago Press, 2001; Hovhannisyan R. Atlas Armenian History. Erevan, 2007.

[2] Daha ətraflı: Вердиева Х.Ю., Гусейн-заде Р.А. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку, 2003.

gəldiklərini iddia edir. Bu yarıməfsanəvi məlumatlar maraq doğurur, çünki ermənilərin əcdadlarını eramızdan əvvəl təqribən 1200-cü ildə Anadoludan döyüşə-döyüşə keçən müəmmalı "dəniz adamları" ilə əlaqələndirməyə imkan verir.[3] Ona görə də ermənişünaslar Ermənistanın tarixini deyil, erməni xalqının tarixini yazırlar. Hətta V əsrdə yaşamış "erməni tarixinin atası" Movses Xorenasi Ermənistan tarixini deyil, məhz "Ermənilərin tarixi"ni ("Patmutyun hayots") uydurmuşdur[4]. Hələ IV əsrdə Anadoluda əldən getmiş erməni dövlətçiliyinin müəyyən dövrlərdə fürsətdən istifadə edilərək bərpası və nəticədə çoxlu sayda "Ermənistan"ın ortaya çıxması çox səciyyəvidir.[5] Birinci (1918-1920-ci illər), İkinci (1920-1991-ci illər) və Üçüncü (1991-ci ildən etibarən) Ermənistan respublikaları Cənubi Qafqazda, Azərbaycanın İrəvan xanlığı torpaqlarında elan edilmişdir.[6]

Ermənilərin müəyyən ərazidə dövlət qurmaqla uzun müddətə məskunlaşmaq cəhdləri uğursuzluğa düçar olurdu, çünki onlar hər zaman və hər yerdə, bu gün olduğu kimi, etnik azlıq təşkil edirdilər.[7] Yaşadıqları ölkədə vəziyyətə müəyyən təsir göstərməyi bacarsalar da, oradakı status-kvonu köklü şəkildə dəyişdirməyə qadir deyildilər. Bu baxımdan ermənilərin son ümidi Rusiya və Qafqazla bağlı idi. Ermənilərin Qafqazdakı fəaliyyətinin hansı nəticələrə gətirib çıxartması bölgədəki xalqların tarixindən yaxşı məlumdur. Bunlar həmçinin siyasi, dini, mədəni, ictimai, iqtisadi və etnoslararası həyatın müxtəlif səviyyələrində erməni xalqının öz qonşuları ilə qurduğu şaquli və üfüqi münasibətlərdə öz əksini tapmışdır.

Beləliklə, ermənilərin Qərbdən Şərqə – Avropadan Anadoluya və oradan da Cənubi Qafqaza doğru əsrlərlə davam etmiş miqrasiya hərəkətinin dərindən və hərtərəfli şəkildə öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Bu, bir çox məsələləri obyektiv şəkildə həll etməyə imkan verər. Birincisi, böyüməkdə olan nəslin obyektivlik, vətənpərvərlik və öz xalqının tarixi keçmişinə hörmət ruhunda tərbiyə olunmasına, ikincisi, həm keçmiş, həm də bu günlə bağlı aktual suallara cavab tapmaqda ictimaiyyətə kömək edər.

---

[3]Лэнг Д. Армяне. Народ–созидатель. Москва, 2004, с. 25.
[4] Мовсес Хоренаци. Советская историческая энциклопедия (СИЭ), Том 9. Москва, 1966. стлб. 537; Большая советская энциклопедия (БСЭ), 3-е изд. Том 16. Москва, 1974, с. 385.
[5] История армянского народа. Ереван, 1951, с. 80, 100, 152; История армянского народа. Ереван, 1980, с. 95, 106, 127, ё50; Саркисян Г.Х. и др. Указ.раб., с. 69, 78, 90, 112; Микаэлян Г.Г. История Киликийского армянского государства. Ереван, 1952, глава XII; Юзбашян К.Н., с. 4-5..
[6] Саркисян Г.Х. и др. Указ.раб.„ главы XVIII, XIX, XXII; История армянского народа, 1980, раздел четвёртый.
[7] Маккарти Дж., Маккарти К. Тюрки и армяне. Руководство по армянскому вопросу. Баку, 1996, с. 18.

**Tədqiqatın xronoloji çərçivəsi** problemin aktuallığı ilə müəyyən olunaraq XIX əsrin 30-cu illərindən XXI əsrin başlanğıcına qədər keçən dövrü əhatə edir. Bu, Osmanlı və İran ermənilərinin Cənubi Qafqaza gəldiyi və erməni kilsəsi, "Daşnaksütyun" partiyası və erməni diasporunun genişmiqyaslı anti-Azərbaycan fəaliyyəti apardığı dövrdür.

**Problemin öyrənilmə səviyyəsi.** İndiyədək nəşr olunan müxtəlif əsərlərdə sözügedən problemə, başqa sözlə erməni məsələsinə müxtəlif yanaşmalar olmuşdur.[8] Bunlar arasında **azərbaycanlı** – İ.M.Hacıyev (Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, Bakı, 2012), E.A.Şıxəliyev (Erməni iddialarının siyasi mahiyəti. Bakı, 2006), F.Ə.Əliyev, U.Həsənov (İrəvan xanlığı. Bakı, 2007), Mahmudov Y., Şükürov K. (Qarabağ: real tarix, faкtlar, sənədlər. Baкı, 2005), Q.Ə.Hacıyev (Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Bakı, 2014; V.Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti. Bakı, 2011; Ирeванский «академический» этап сезона Горисского театра абсурда С.Саркисяна. Bakı, 2013), Q.Çaxmaqlı ("Erməni məsələsi" tarixin izi ilə. Bakı, 2008), X.Y.Verdiyeva (Переселенческая политика Российской империи в Северном Азербайджане. XIX – начало XX веков. Баку), N.A.Əliyev (1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə. Bakı, 2007), F.M.Abbasov (Гарабагское ханство. Баку, 2007), G.C.Nəcəfli (XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007), V.Arzumanlı, N.Mustafa (Tarixin qara səhifələri. Bakı, 1998), A.Qarabağlı (Qarabağ. Onun qədim tayfaları və toponimləri. Bakı, 2008), Ə.Ələkbərli (Qədim türk-oğuz yurdu "Ermənistan". Bakı, 1994), F.Qaraoğlu (Ermənilər və həqiqətlər. Üç cilddə. Bakı, 2007-2009), K.B.İmranlı (Создание армянского государства на Кавказе: истоки и последствия. Москва, 2006); **türk** – N.Gül (Yüzyılın Başlanğıcında Haydat (ermənilərin davası) // Avrasya dosyası (aylık uluslararası ilişkiler ve stratejiк araştırmalar dergisi), Anкara, 2001, sayı: 2, s. 25-28.); N.Gül, G.Eкici (Azerbaycan ve Türкiye ile bitmeyen kan davası eкseninde Ermenistanın dış politiкası // Avrasya dosyası (üç aylık uluslararası ilişкiler ve stratejiк araştırmalar dergisi, Anкara, 2001, cild: 7, sayı: 1, s. 367-392); İ.Özçelik (Karabağ tarihi ve Karabağda erməni olayları. Ankara, 2003); H.Selvi (Türkiye-Ermenistan ilişkilerinin halhazir durumu ve geleceği // Stratejik Araştırmalar Dergisi №2, Ankara, Eylül 2003, s.22); M.Saray (Ermenistan

---

[8] Nəşrlərimizin siyahısına baxın.

ve türk ermeni ilişkileri. Ankara, 2005; Uluslararası suçlar və Tarih. Ankara, 2 avqust 2006); **rus** – Q.D.Qaçev (Национальные образы мира: Кавказ. Интеллектуальные путешествия из России в Грузию, Азербайджан и в Армению. Москва, 2002), M.Mişin (Одна из историй и анти историй Кавказа. Москва, 2012), Y.A.Pompeyev (Карабахский дневник. Москва, 2010); **qərbli** – T.Vaal (Черный сад. Армения и Азербайджан между миром и войной. Москва, 2005); F.Kazımzadə (Борьба за Закавказье (1917-1921). Стокгольм, 2010); T.Svetoxovski (Русский Азербайджан: 1905-1920. Журнал «Хазар», 1990, № 3); Armenian Illigations: Mith & Reality. "A Handbook of Facts & Documents", Washington, 1987; J.Rau (The Nagorno-Karabakh between Armenia and Azerbaijan. A Brief Historical Outline. Berlin, 2008), "Erməni soyqırımı. Uydurma və gerçək" (Справочник фактов и документов. Баку, 1993) və **erməni** – S.Ayvazyan (История России. Армянский след. Москва, 2000), K.N.Brutens (Несбывшееся. Неравнодушные заметки о перестройке. Москва, 2005), Q.A.Kapancyan (Хайаса – колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947), V.A.Parsamyan (История армянского народа. 1801-1900 годы. Ереван, 1972), V.E.Xocabekyan (Демография и проблемы занятости в Армении. С начала XIX века до середины XXI века. Ереван, 2006) müəlliflərin əsərləri yer almışdır. Lakin tədqiqini qarşıya qoyduğumuz problemi konkret və hərtərəfli araşdırmaq üçün bu sadalananlardan əlavə çoxlu sayda mənbələrə də müraciət etmişik.

**Problemin mənbəşünaslığı.** Araşdırmalarımız zamanı müxtəlif ilkin materiallardan istifadə etməklə mövzu ilə bağlı tarixi proseslərin mahiyyətini üzə çıxarmağa çalışmışıq. Bunlar arxiv sənədləri, həmçinin rus, erməni və Qərb müəlliflərinin XIX – XX əsrin əvvəllərində dərc olunmuş əsərləridir. Onların arasında Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Azərbaycan Respublikasının Dövlət Arxivində ("Письмо Мехтигулу хана Карабахского князю И.Н.Абхазову от 21 июля 1827 года". АКАК, том VII. Тифлис, 1878); Rusiya Federasiyasının Mərkəzi Dövlət Tarix Arxivində saxlanılan sənədləri, bəzi tarixi əsərləri (Ф.Багиров. Переселенческая политика царизма в Азербайджане. 1830-1914 годы. Москва, 2009; С.Н.Глинка. Описание переселения армян аддербиджанских в пределы России. Москва, 1831; Э.Мамедли. Карабахская сага. Тома 1 и 2. Москва, 2010-2011; М.О.Меньшиков. Национальная империя. Москва, 2004) qeyd etmək olar.

Adı çəkilən sənədlərdə hərbi-siyasi, etno-demoqrafik, dini, ərazi mövzularına dair zəngin material toplanmışdır. Onların əsasında ermənilərin Balkan yarımadasından Qafqaza doğru miqrasiya yollarını, Rusiya

imperiyası tərəfindən Azərbaycan torpaqlarında məkunlaşdırılmasını, həmçinin Azərbaycana qarşı yönəlmiş pozucu və terrorçu fəaliyyətdə ermənilərin necə “ad” çıxardığını aydın izləmək mümkündür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Problemin öyrənilmə səviyyəsi tədqiqat sahəsinin hələ də geniş olduğunu söyləməyə imkan verir. Belə ki, aşağıdakı vəzifələr həyata keçirilməlidir:

- Ermənilərin Qafqazın avtoxton əhalisi olmadıqlarının əsaslandırılması;
- Ermənilərin Cənubi Qafqazda öz dövlətlərini qurduqları torpağın, o cümlədən Yerevan şəhərinin Azərbaycan ərazisi olmasına dair yeni faktların və dəlillərin təqdim edilməsi;
- Ermənilərin Cənubi Qafqaza köçürülməsində Rusiya imperiyasının rolunun, eyni zamanda Rusiyanın Qafqaz siyasətində ermənilərin əhəmiyyətinin göstərilməsi;
- Ermənilərin Cənubi Qafqaza köçürülməsinin Şimali Azərbaycan və azərbaycanlılar üçün mənfi nəticələrinin üzə çıxarılması;
- Ermənilərin Cənubi Qafqazda “dənizdən dənizə Böyük Ermənistan” xülyasını həyata keçirmək cəhdlərinin səbəblərinin göstərilməsi;
- “Erməni vilayəti”nin Cənubi Qafqazda erməni dövlətinə çevrilməsi prosesinin səbəblərinin və ermənilərə kim tərəfindən dəstək verilməsinin izahı;
- Azərbaycana və azərbaycanlılara qarşı çoxşaxəli cinayətlər törətmiş ermənilərin bu cür terror fəaliyyətinin mahiyyətinin təhlili.

**Tədqiqatın metodoloji əsasını** konkret tarixi və müqayisəli-tarixi bazis, aktualizm, problemin mühümlüyü, həmçinin genetik, funksional-struktur və sistemli təhlil, deduksiya və induksiya üsulları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** bir çox amillərlə müəyyən olunur. Bu, birincisi, ermənilərin Şimali Azərbaycana kütləvi, mütəşəkkil və məqsədyönlü şəkildə köçürülməsi probleminin azərbaycanşünaslıqda ilk dəfə qoyulması və həll edilməsi; ikincisi, bütün bunların həm ölkə, həm də azərbaycanlılar üçün eyni dərəcədə mühüm və aktual olan nəticələrinin şərhi ilə bağlıdır. Tədqiqatda problemin aşağıdakı mühüm aspektləri ilk dəfə öyrənilir:

- Ermənilərin Cənubi Qafqaza kütləvi, mütəşəkkil və məqsədyönlü şəkildə köçürülməsi və bu prosesdə Rusiya imperiyasının rolu;
- Rusiya siyasətinin cənub istiqaməti üçün Qafqazdakı müttəfiq erməni amilinin rolu və əhəmiyyəti;
- “Ermənistan”ın Qafqaz, ermənilərin isə “qafqazlı” olmaması;

- Ermənilərin Cənubi Qafqaza köçürülməsinin Şimali Azərbaycan və azərbaycanlılar üçün mənfi nəticələri;
- Ermənilərin Cənubi Qafqazda "dənizdən dənizə Böyük Ermənistan" xülyasını həyata keçirmək cəhdləri;
- "Erməni vilayəti"nin erməni dövlətinə – əvvəlcə Ararat Respublikasına, daha sonra Ermənistan SSR-ə, sonda isə Ermənistan Respublikasına çevrilməsi yolları;
- Cənubi Qafqazda ermənilərin azərbaycanlılara qarşı çoxşaxəli məkrli fəaliyyətləri;
- Ermənilər tərəfindən Azərbaycan torpağının, tarixinin, azərbaycanlıların maddi və mənəvi mədəniyyət nailiyyətlərinin mənimsənilməsi;
- Ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsinin geosiyasi nəticələri.

**Tədqiqatın praktik əhəmiyyəti:** Tədqiqat XIX əsr – XXI əsrin əvvəllərinə aid Azərbaycan tarixinin dərk edilməsi baxımından əhəmiyyətlidir. Bu tədqiqat aşağıdakılar baxımdan mühüm əhəmiyyət kəsb edir:

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində Azərbaycan reallıqlarının hərbi-siyasi, etno-demoqrafik, sosial-iqtisadi aspektlərinin obyektiv dərk edilməsi;
- Yeni və ən yeni Azərbaycan tarixinin dərindən öyrənilməsi;
- Çoxcildli Azərbaycan tarixinin yazılması;
- Gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunması;
- Aftoxton azərbaycanlılarla Cənubi Qafqazda alloxton etnos olan ermənilər arasında münasibətlərin öyrənilməsi;
- Ölkəmizin ümumtəhsil və ali məktəblərində, həmçinin xaricdə Azərbaycan tarixinin tədrisi;
- Ermənilər və onların Azərbaycan torpağında məkrli fəaliyyəti barədə həqiqətin Qafqazda və onun hüdudlarından kənardakı ictimaiyyətə çatdırılması.

**Tədqiqatın aprobasiyası** müəllif tərəfindən dissertasiyanın mövzusu üzrə bir neçə kitab və məqalə dərc etdirməsi, habelə beynəlxalq forumlarda məruzələrlə çıxış etməsi ilə həyata keçirilmişdir.

**Əsərin tərkibi.** Dissertasiya giriş, dörd fəsil, nəticə və biblioqrafiyadan ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də problemin aktuallığı və elmi əhəmiyyəti, tədqiqatın xronoloji çərçivəsi və öyrənilmə səviyyəsi, mənbəşünaslığı, məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, elmi-praktik əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

**"Ermənilərin Cənubi Qafqaza köçürülməsi"** adlanan birinci fəsil dörd yarımfəsildən ibarətdir. Bu fəsildə ermənilərin geniş kütlələrlə Cənubi Qafqaza məqsədyönlü şəkildə köçürülərək, əsasən Şimali Azərbaycan torpaqlarında məskunlaşdırılmasında Rusiya imperiyasının rolu kimi mühüm mövzular nəzərdən keçirilir. Göstərilir ki, bu subregiona yetişməzdən öncə ermənilər qərbdən şərqədək çoxəsrlik və uzun yol keçmişlər. Ona görə də ermənişünaslar öz tarixlərindən danışarkən "erməni marşrutu"nu şərq istiqamətində, yəni Balkanlardan Anadoluya və Qafqaza qədər göstərməyə çalışarkən çoxlu sayda "ermənistan" sadalayırlar. Ermənilər daima təmasda olduqları ərazidə, dövlətlərə, qəbilə və etnoslara qarşı ərazi iddiaları və pozucu fəaliyyətlər həyata keçirmişlər. Roma və Bizans imperiyaları, Ərəb xilafəti, Səlcuq, Monqol, İran və Osmanlı dövlətləri dövründə onlar məhz bu cür hərəkət edirdilər. Hazırda 27 "Ermənistan"ın "mövcud olması" bunun bariz nümunəsidir. Bunlar Birinci, İkinci, Üçüncü, Dördüncü Ermənistan, Bizans Ermənistanı, Kilikiya Ermənistanı, Yustinian Ermənistanı, Yüksək Ermənistan, Daxili Ermənistan, Dərin Ermənistan, Türkiyə Ermənistanı, Böyük Ermənistan, Kiçik Ermənistan, Cənub, Şərq, Qərb, Şimal, Mesopotamiya Ermənistanı, Şimal-Şərqi Ermənistan, Böyük Ermənistanın bir hissəsi, İran Ermənistanı, üstəlik Böyük Ermənistanın əksər hissəsi, Armina, Ermənistan hüdudlarından kənardakı Ermənistan, Armeniaka və Erməni vilayətidir[9].

---

[9] История армянского народа. Ереван, 1980, с. 34-36, 68, 259; Саркисян Г.Х. и др. Göstərilən əsər, s. 28, 76, 106, 150, 153, 164, 199, xəritələr s. 24-25, 72-73, 107; Юзбашян К.Н. Göstərilən əsər. Армянские государства эпохи Багратидов и Византия IX-XI веков. Москва, 1988, с. 22, 156; Арутюнова-Фиданян В.А. Повествование о делах армянских. VII век. Москва, 2004, с. .22, 29, 58, 67, 69-72, 96, 97, 107, 108, 185, 204, 213, 218, 219, 233, 242, 244, 247, 250, forzas xəritəsi; Еремян С.Т. Атлас к «Истории армянского народа. Часть первая». Ереван, 1952; Oradaca. Армения по «Ашхарацуйц»у (армянской географии VII века) (Опыт реконструкции армянской карты VII века на современной картографической основе). Минск, 1961; Айвазян С. Исторические карты Армении. Ереван, 2003; Даниелян А.П. Армения. Исторический атлас. Москва, 2003; Hewsen R.H. Armenia. A Historical Atlas. Chicago-London: The University of Chicago Press, 2001; Hovhannisyan R. Atlas Armenian History. Erevan: "Cilician Hayastan" Educational-Cultural Center, 2007.

Ona görə də ermənişünaslar Ermənistan tarixini deyil, erməni xalqının tarixini yazırlar. Bu baxımdan ermənilərin dörd dəfə dövlətçilikdən məhrum edilmələri səciyyəvidir.

Ermənilərin müəyyən ərazidə məskunlaşıb dövlət qurmaq səyləri uğursuz olurdu, çünki onlar daima etnik azlıq təşkil etmiş və etməkdədirlər.[10] Ermənilər daimi ərazi əldə etmək üçün son ümidi Rusiya və Qafqazla bağlamışdılar. Həmin planların həyata keçirilməsi Qafqazın, ilk növbədə Azərbaycanın Naxçıvan və İrəvan xanlıqlarının ərazilərinin erməniləşdirilməsi ilə nəticələndi.

Beləliklə, daha əvvəl Xəzər, Azov və Qara dənizlərdə hökmranlığını təmin etmiş Rusiya imperiyası XIX yüzillikdə Qafqazı da ələ keçirərək Azərbaycanın torpaqları hesabına "Qafqaz Ermənistanı"nın təməlini qoydu.

Qafqazın xristianlaşdırılması planını həyata keçirən Rusiya Osmanlı və İran ərazilərindəki erməniləri əlverişli imtiyazlarla tarixi Azərbaycan torpaqları olan İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazisində yerləştirdi. Nəticədə XIX yüzilliyin 30-cu illərindən başlayaraq XX əsrin əvvəlinədək müddət ərzində Şimali Azərbaycanda nəzərə çarpan etnik-demoqrafik dəyişikliklər baş verdi. Bunu aşağıdakı cədvəldə də görmək mümkündür.[11] Burada Şimali Azərbaycanın bütün ərazisində, yəni 130 min kv.km. sahədə, o cümlədən sonradan İrəvan quberniyasına çevrilən "Erməni vilayəti"ndə, həmçinin tarixi Azərbaycan ərazilərindən olan Borçalıda (indiki Gürcüstan ərazisi), eləcə də vaxtilə Azərbaycan tarixində parlaq yerə sahib Qafqaz Albaniyası dövlətinin bir əyaləti olmuş cənubi Dağıstanda ermənilərin say dinamikası əks olunmuşdur.

**XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda ermənilərin say dinamikası**

| İllər | Ölkənin əhalisi | Ermənilərin sayı |
|---|---|---|
| **1822-1826** | 550.000 nəfər | 51.530 nəfər yaxud 9,37% |
| **XIX əsrin 40-cı illəri** | 750.00 nəfər | 159.086 nəfər yaxud 21% |
| **1873** | 1.779.699 nəfər | 334.242 nəfər yaxud 19,05% |
| **1886** | 2.186.500 nəfər | 690.615 nəfər yaxud 32,04% |
| **1897** | 2.620.805 nəfər | 784.347 nəfər yaxud 29,8% |
| **1916** | 3.756.596 nəfər | 1.208.615 nəfər yaxud 32,8% |

[10] Маккарти Дж. Маккарти К. Тюрки и армяне. Руководство по армянскому вопросу. 1996, с. 18.
[11] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начало XX веков). Баку, 1999, с. 235.

Beləliklə, Qafqazın etnik-siyasi mühitində meydana gələn erməni amili bölgənin siyasi, etnik, dini, ərazi, iqtisadi, ictimai və ticarət həyatında getdikcə daha aktiv rol oynayırdı. Qafqazşünaslar bunu mənfi hadisə kimi qiymətləndirmişlər.[12]

Dissertasiyanın I fəslinin sonunda ermənilərin xüsusi diqqət yetirdikləri erməni xalqının qafqazlı olub-olmaması məsələsi araşdırılır. Ermənişünaslar özləri də hesab edirlər ki, onların soydaşları Qafqazda gəlmə etnosdur.[13] Burada həmçinin, ermənilərin yerli etnosların maddi və mənəvi mədəniyyətindən əxz etdikləri çoxsaylı nümunələrdən bəhs olunur.

**"Ermənilərin Cənubi Qafqaza köçürülməsinin Şimali Azərbaycan və azərbaycanlılar üçün nəticələri"** adlanan ikinci fəsil üç yarımfəsildən ibarətdir. Ermənilərin dövlətçilikdən məhrum qaldıqları uzun tarixi dövr ərzində bu xalqı həm mənən, həm də cismən birləşdirən əsas qüvvə erməni-qriqorian kilsəsi olmuşdur. Bununla yanaşı, son dövrdə erməni siyasi partiyaları və diasporu da həmin istiqamətdə mühüm işlər görmüş və görürlər. Bunlar günümüzə qədər fəal olan "kilsə-partiya-diaspor" triadasını təşkil etmişlər.

XIX əsrin otuzuncu illərində Cənubi Qafqazı istila edən Rusiya Osmanlı və İran ermənilərinin buraya kütləvi şəkildə mütəşəkkil köçürülməsinə start verdi. Onların daha çox məskunlaşdırıldığı ərazi yerli müsəlmanların, yəni azərbaycanlıların və Axısxa türklərinin (indiki Gürcüstan ərazisi) yaşadıqları torpaqlar oldu.

Rusiya imperiyası 1917-ci ildə süqut etdikdən sonra triadanın əlinə erməni dövlətçiliyini bərpa etmək fürsəti düşdü. Bu dəfə Cənubi Qafqazda bərqərar olunan erməni dövləti "dənizdən dənizə Böyük Ermənistan" şüarı altında ərsəyə gətirilirdi.

1918-ci ilin mayında Şimali Azərbaycanda Azərbaycan Xalq Cümhuriyyəti (AXC), gürcü torpaqlarında Gürcüstan Demokratik Respublikası (GDR) və Azərbaycanın keçmiş İrəvan xanlığının torpağında erməni Ararat Respublikası yarandı. Elə ilk günlərdən öz ərazisini

---

[12] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С.-Петербург, 1911; Oradaca. Русский путь в Закавказье. С.-Петербург, 1883; Будилович А.С. Может ли Россия отдать инородцам свои окраины? С.-Петербург, 1907; Канадеев И.Н. Очерки Закавказской жизни. С.-Петербург, 1902, с.5-33.

[13] Адонц Н.Г. Армения.. Новый энциклопедический словарь Брокгауза-Ефрона (НЭС), том 3. С.-Петербург, 1912, стлб. 601-602; Абегян М. История древнеармянской литературы. Ереван, 1975, с. 12-14; Капанцян Г.А. Хайаса – колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947, с. 240, 242; Лэнг Д. Армяне. Народ–созидатель.. Москва, 2004, с. 23-27, 31.

genişləndirmək üçün ardıcıl fəaliyyətə başlayan erməni triadası Şimali və Cənubi Azərbaycanı, Gürcüstanı, Şərqi Anadolunu əhatə edən fantastik xəritə nəşr etdirdi.[14]

1920-ci ildə Cənubi Qafqaz RSFSR-in XI qırmızı ordusunun gücü hesabına sovetləşdirildikdən sonra yenicə yaranmış Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasındakı bütün mübahisələr bir qədər səngidi, amma tamamilə aradan qalxmadı. Həmin dövrdə erməni tərəfinin Azərbaycan torpaqlarına iddialarının qarşısını almaq üçün rəsmi Bakı Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranmasına razılıq verdi. Buna baxmayaraq, ermənilik əvvəlki kimi “dənizdən dənizə Böyük Ermənistan” iddiasından əl çəkmirdi.

“Böyük Ermənistan” probleminə retrospektiv nəzər salmaqla xatırladaq ki, artıq 100 ilə yaxındır ki, Rusiya imperiyası dağılıb, bir qədər sonra Osmanlı dövləti də süqut edib, hazırda SSRİ də mövcud deyil, “dənizdən dənizə Böyük Ermənistan” xülyası isə yaşamaqdadır. Onun ideoloqları cəzbedici görünən xəyalları həyata keçirmək cəhdlərindən əl çəkmirlər. Bunun nəticələri arasında ermənilərin indiki qonşularına qarşı ərazi iddiaları irəli sürülür. Qeyd etmək lazımdır ki, ermənilər hər hansı ərazidə yerləşdirildikdən sonra ermənişünaslar həmin torpaqların israrla əzəldən erməni yurdu olduğunu irəli sürməyə artıq adət etmişlər.[15]

Bununla bağlı XX əsrin əvvəlində baş vermiş hadisələri misal gətirək. 4 iyun 1918-ci il tarixində “Daşnaksütyun”un rəhbərlik etdiyi Ararat Respublikası Osmanlı dövləti ilə “sülh və dostluq haqqında” müqavilə imzaladı. Həmin sənədin şərtlərinə görə Ararat Respublikasının ərazisi 4000 ingilis kvadrat mili, yəni 10.000 kvadrat kilometr müəyyən olunurdu.[16] Lakin bununla kifayətlənməyən daşnaklar Dağlıq Qarabağ, Axalkalaki, Cavaxeti, Borçalı, Naxçıvan və keçmiş Yelizavetpol quberniyasının bir hissəsinə iddialar irəli sürməyə başladılar. Təkcə iddialarla da

---

[14] Джавахишвили И.А. Доклад правительству Грузии. 1926 год. // Журнал « Артануджи», 1998, № 7.

[15] Акопян А.А. Мурадян П.М. Юзбашян К.Н. К изучению истории Кавказской Албании. «Историко-филологический журнал» АН АрмССР», Ереван, 1987, № 3; Минасян С. Социально-экономическая ситуация в Джавахети. Журнал «Центральная Азия и Кавказ» (ЦАК), Лулеа, Швеция, 2005, № 3.

[16] Свентоховский Т. Русский Азербайджан, 1905-1920. Пер. с англ. Жрнал « Хазар», Баку, 1990, №3, с.33; Гурко-Кряжин В. Армянский вопрос. БСЭ, 1-е изд., том 3, Москва, 1926, стлб.436.

kifayətlənməyib sözügedən əraziləri silah gücünə ələ keçirmək üçün Azərbaycana və Gürcüstana qarşı elan olunmamış müharibələr apardılar.[17]

Beləliklə, XX əsrdən başlayaraq ermənilər Qafqazda və qonşu ərazilərdə "dənizdən dənizə Böyük Ermənistan" qurmağa çalışırlar. Bu iddianı "əsaslandırmaq" üçün onlar nə az, nə çox 27 "Ermənistan"dan bəhs edirlər.

Bununla əlaqədar sovet Azərbaycanının ilk rəhbəri N.Nərimanovun sözlərini xatırlatmaqda fayda var: "Yadımdadır, 1917-ci ilin yay günlərinin birində Tbilisidə Ramişvilinin iş otağında menşeviklərin liderləri Jordaniya, Gegeçkori və digərləri toplaşmışdı. Piterdə (Peterburqda – müəllif) "Böyük Ermənistan" ideyasını irəli sürən, başqa sözlə, Azərbaycan, Gürcüstan və az qala Rostova qədər Rusiya ərazilərini ələ keçirmək istəyən erməni millətçilərinin çıxışlarına necə reaksiya veriləcəyini müzakirə etməyə başladılar. Məndən soruşdular: "Sizin fikriniz nədir?" Cavab verdim: "Bunlar bizimkiləri "Böyük Azərbaycan" haqqında, sizi isə "Böyük Gürcüstan" barədə düşünməyə vadar edəcək".[18]

XXI əsrdə ermənilərin ərazi iştahası daha da artdı. Hazırda qərbdə Pireney yarımadası, şərqdə Mərkəzi Asiya, şimalda Rusiyanın cənub hissəsi, cənubda isə Fars körfəzi arasına düşən torpaqlar e.ə. VI əsrdə "Ermənistan"ın tərkibinə daxil olduğu iddia edilir.[19]

Qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə sıx bağlı olan erməni milli-şovinist hərəkatı 1953-cü ildə yenidən fəallaşdı. Həmin dövrdə Ermənistan SSR-də müxtəlif "vətənpərvərlik" təşkilatları olan "Vətənpərvərlər ittifaqı", "Erməni Gənclər İttifaqı", "Milli Birlik Partiyası" yarandı. Bunlar əsas məqsəd kimi "erməni dövlətçiliyini tam həcmdə bərpa etməyi", yəni şərqi Anadolu, Şimali Azərbaycan və Gürcüstan (o cümlədən Naxçıvan, Dağlıq Qarabağ, Cavaxeti, Borçalı), həmçinin Rusiya Federasiyasının Stavropol və Krasnodar diyarlarının, Rostov və Həştərxan vilayətlərinin müəyyən əraziləri hesabına "dənizdən dənizə Böyük Ermənistan" qurmağı qarşıya qoymuşdular.[20] Bundan əlavə, ABŞ ermənilərinin Milli Şurası "Türkiyə

---

[17] Армяно-грузинский вооруженный конфликт 1918 года. http://www.hrono.ru/sobyt/1918arm.html; Армяно-азербайджанские вооруженные конфликты 1919-1920 годов. http://www.hrono.ru/organ/ukazatel/index.php

[18] Дубинский-Мухадзе И. Нариманов. Москва, 1977, с. 218.

[19] Айвазян С. Исторические карты Армении. Карта 27.

[20] Ракачев В.Н. // www.kuban.ru; Логина М. Миграция и мигранты Ставрополья // www.rocich.ru/article/63/; Минасян С. Göstərilən əsər; Шнирельман В.А. Войны памяти. Мифы, идентичность и политика в Закавказье. Москва, 2003, с.48; Багдыков Г. Краткая история «донских» армян. // www.hnd.rosden.ru.

tərəfindən zorla qəsb edilmiş torpaqları" Sovet Ermənistanına qaytarmağı tələb etdi.[21] İrana qarş ıisə nə o zaman, nə də bu gün bir dəfə də olsun hər hansı ərazi iddiası irəli sürülməyib.

Əlbəttə, bütün bunlar sırf xam xəyallar, erməniliyin ortaya atdığı şüardan başqa bir şey deyil. Çünki "erməni tarixinin əbədi ağrısını belə bir fakt təşkil edir ki, orta əsrlərin böyük bir dövründə və sonradan 1918-ci ilədək ermənilərin müstəqil dövləti demək olar ki, olmayıb".[22]

**"Cənubi Qafqazda ermənilərin antiazərbaycan fəaliyyəti"** adlı üçüncü fəsil yeddi yarımfəsildən ibarətdir. Ən tanınmış erməni kinorejissoru Sergey Paracanov (1924–1990) Fransanın "Liberation" qəzetinə verdiyi müsahibədə deyirdi: "Mən erməni xalqını iki kateqoriyaya bölərdim. Birinci kateqoriyaya daxil olanlar təmsil etdikləri xalqın mədəniyyətinin daşıyıcısı missiyasını yerinə yetirdiklərini tam dərk edir, Sasunlu Davidin ənənələrini qoruyurlar. İkinci qrup isə hazırda, təəssüf ki, öz qüsurlarını nümayişkaranə göstərən azğın qaraguruhdan ibarətdir. Məncə, daha humanist fəaliyyət üsullarını axtarıb tapmaq, ölüm hallarından, Balançinin baletini xatırladan təmtəraqlı dəfn mərasimlərindən uzaq durmaq lazımdır".[23]

Bu fəsildə məhz "azğın qaraguruh"dan, yəni ermənilər arasındakı özlərini millətin başbilənləri hesab edən zümrənin dağıdıcı fəaliyyətindən bəhs edilir. Hələ XIX əsrdə başlayan bu fəaliyyət günümüzədək davam etdirilir. Lakin bu gün erməni triadasının beynəlxalq miqyasda qeyri-qanuni hərəkətləri barədə artıq açıq bəhs olunur. Bununla əlaqədar qeyd edək ki, erməniliyin çoxsaylı gizli qurumları erməni triadası, yəni kilsə, "Daşnaksütyun" Partiyası və diaspor tərəfindən hərtərəfli, həm maddi, həm də mənəvi dəstək görür.

Böyük Yaxın Şərqdə erməni triadasının fəallaşması ABŞ xüsusi xidmət orqanlarının fikrincə, birincisi, onların əksər bazalarının qədim və nüfuzlu 150 minlik erməni icmasının mövcud olduğu Livanda yerləşməsilə,[24] ikincisi də, erməni təşkilatlarının Livanda narkotik qaçalmalçılığında iştirak edərək əldə olunan gəlirlərin terrorçuluq fəaliyyətlərinə sərf etmələrilə bağlıdır.[25]

Təsadüfi deyil ki, müasir erməni gizli şəbəkəsinin beynəlxalq miqyası və geniş əlaqələri, həmçinin terrorizmin narkotik qaçaqmalçılığından əldə

---

[21] Шнирельман В.А. Указ.раб., с. 60.
[22] Шнирельман В.А. Указ.раб., с. 98.
[23] Газета «Libération», 8.11.1988.
[24] Армянский противоправный консорциум на Востоке. www.iatp.am/economics/migr/obd.htm.
[25] Steinitz M.S. Op. cit.

edilən gəlirlərdən bəhrələnməsi barədə 1985-ci ildə ispan televiziyasına verdiyi müsahibədə “Çaqqal” ləğəbi ilə tanınan məşhur terrorçu Karlos bildirmişdir: “Bizim erməni terror təşkilatları ilə əlaqələrimiz var. Biz bir-birimizə yardım və sıx əməkdaşlıq edirik. Narkobiznes bizim başlıca silahımızdır, deyə bilərəm ki, nüvə silahımızdır”.[26]

• Erməni terror şəbəkəsinin ən fəal və geniş yayılmış təşkilatı “ASALA”dır. XX əsr boyu və XXI əsrin əvvəlində bu təşkilat və başqa erməni qurumları Azərbaycana və azərbaycanlılara qarşı bir çox cinayətlər törətmişlər. Həmin cinayətkar fəaliyyətləri xronologiya baxımdan bir neçə mərhələyə bölmək olar. Birinci mərhələ XIX əsri əhatə edir, həmin dövrdə İran və Osmanlı ermənilərinin kütləvi surətdə məskunlaşdırıldığı Şimali Azərbaycanda süni “Erməni vilayəti” yaradıldı. İkinci mərhələ 1905-1918-ci illər azərbaycanlılara qarşı soyqırım həkətlərini, üçüncü mərhələ 1918-1920-ci illərdə Ararat Respublikası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinə qarşı aparılan iki elan olunmamış işğalçı müharibəni, dördüncü mərhələ Dağlıq Qarabağı rəsmi səviyyədə ələ keçirmək üçün Yerevanın çoxsaylı addımlar atdığı 1920-1988-ci illəri, beşinci mərhələ 1988-1994-cü illər Ermənistanın Azərbaycana qarşı sayca üçüncü işğalçı müharibəni, altıncı mərhələ isə qondarma “Dağlıq Qarabağ respublikası”nı qanuniləşdirmək üçün Ermənistan tərəfindən ardıcıl səylər göstərildiyi 1994-cü ildən bu günədək olan dövrü ehtiva edir.

Bütün bu mərhələlər müddətində ermənilər Azərbaycana qarşı bir çox etnik-terror, elmi-mədəni, dini, ərazi və toponimik cinayətlər törətmişlər. Məsələn:

• 1893-1919-cu illər ərzində “Hınçak” və “Daşnaktsütyun” partiyalarını təmsil edən erməni terrorçuları Osmanlı dövləti və Cənubi Qafqazın İstanbul, Bakı, Tiflis, Ərzurumda, Aleksandropol, Qars, Naxçıvan, İrəvan, Şuşa, Gəncə, Qazax, Şəki, Urmiya, Şamaxı, Quba, Axalkalaki, Kürdəmir, Axalsix, Cəbrayıl, Trabzon kimi şəhərlərində 129 terror aktı həyata keçirmişlər.[27] Nəticədə evlər yandırılmış, qarətlər törədilmiş, dinc azərbaycanlılar, türklər, gürcülər, eləcə də terrorçulara yardım göstərməkdən imtina edən ermənilər öldürülüşdü. Qətlə yetirilmiş qoca, qadın və uşaqların sayı on minlərlə ölçülür, xeyli insan doğma yurd-yuvasından qaçqın düşürdü.

---

[26] Columbia: The Carlos Connection // «The Nation», 22. VII. 1985.
[27] Церцвадзе Ф. Лицемерие и ложь армянской пропаганды. Баку, 2007, с. 47–56.

• 1918-ci il martın 31-də S.Şaumyanın rəhbərliyi ilə erməni daşnakları və bolşeviklər azərbaycanlılara qarşı soyqırım həyata keçirmişlər.[28]

• 1920-1921-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mühacirətdə olan sabiq rəhbərləri Həsənbəy Ağayev, Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyli, Behbud xan Cavanşir qətlə yetirilmişlər.

• 1991-1992-ci illərdə 14 sərnişin vertolyotu vurulmuş, körpülərə hücumlar təşkil edilmiş, bir neçə sərnişin qatarı partladılmışdır. 10 il (1984-1994) ərzində 1200-dən artıq insan həlak olmuş və təqribən 2400 nəfər yaralanmışdır. Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti müəyyən etmişdir ki, bu təxribatlar Ermənistanın Milli Təhlükəsizlik İdarəsinin rəsmiləri tərəfindən təşkil edilib.[29]

• Ermənistanın tərkibinə qatılan Azərbaycan torpaqlarında, o cümlədən keçmiş İrəvan xanlığının, Dağlıq Qarabağın və ətrafdakı yeddi rayonun ərazisindəki 964 azərbaycanca toponimin hamısı 1925-1989-cu illər ərzində erməniləşdirilib.[30]

• VIII əsrdə erməni kilsəsi alban apostol avtokefal kilsəsini, onun məbəd və monastırlarını, o cümlədən Yerusəlimdəkiləri, həmçinin mömin dindar təbəqəsini ələ keçirməyi bacardı.[31]

**“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə geosiyasi baxiş: analitik rakurs”** adlanan dördüncü fəsil beş paraqrafdan ibarətdir. Ekspertlərin gəldiyini qənaətə əsasən, bu gün dünyada 200-dək gərginlik ocağı mövcuddur və əksəriyyətinin təməlində separatçılıq hərəkatı durur. Bu münaqişələr arasında xüsusi yer tutan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə bir neçə baxış var.

Birinci baxış 1822-ci ildə Qarabağ xanlığının Ruysiya tərəfindən ləğv edilməsi ilə bağlıdır. Yuxarıda qeyd edildiyi kimi, 1918-ci ildə erməni dövlətçiliyi Azərbaycan torpağında bərpa olundu. Bu, öz hüdudlarını hərb yolu ilə genişləndirməyə çalışan Ararat Respublikası idi.

İkinci baxış sovet dövrü ilə bağlıdır. Həmin mərhələdə Ermənistan rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətini (DQMV) Azərbaycandan dinc

---

[28] Исмайлов Э.Р. Степан Шаумян – обречённый .на забвение. Портрет «легендарного коммунара» без ретуши. Баку, 2012, с. 244-289.

[29] Преступления армянских.., с. 167.

[30] Решения Совета Министров Армянской ССР. 1924-1979 годы; указ первого Президента Республики Армения. Газета «Голос Армении», Ереван, 19.IV. 1991

[31] История агван Мойсея Каганкатваци, писателя X века. Перевод К.Патканова. С.-Петербург, 1861, часть третья, главы V-VIII, LII; Буниятов З.М. Азербайджан в VII-IX веках. Избранные сочинения, том I. Баку, 1999, глава III/2.

yolla qoparmaq üçün 60-dan artıq cəhd göstərmişdi,[32] 1988-ci ildə isə açıq ərazi iddialar irəli sürdü ki, tezliklə bu qarşıdurma hərbi təcavüz şəklini aldı.

Üçüncü baxış 1994-cü ildə həmin müharibənin başa çatdığı, Azərbaycan ərazilərinin işğal edildiyi, keçmiş DQMV ərazisində qondarma "Dağlıq Qarabağ respublikası"nın elan olunduğu postsovet dövrü ilə bağlıdır.

Dördüncü baxış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə İrəvanda və Bakıda fərqli yanaşmalarla, onun nə cür şərh və yozumlarla izah olunması ilə bağlıdır. Erməniliyin fikrincə, DQMV-nin işğalı "erməni xalqının iki hissəsinin birləşməsi"nə gətirib çıxartdı. Azərbaycan isə hesab edir ki, ermənilər növbəti dəfə öz ərazisilərini genişləndirərək yeni-yeni Azərbaycan torpaqlarını işğal etmişlər.

Beşinci baxış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini geosiyasət müstəvisində şərh edir. Bu münaqişə bir sıra böyük dövlətlərin maraqlarına toxunur, çünki Cənubi Qafqaz Böyük ipək yolu, TRASECA, habelə beynəlxalq neft və qaz kəmərləri, avtomobil və dəmir yollarını əhatə edən mühüm layihələrin həyata keçirildiyi regiondur.

Altıncı baxışa görə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində, hər halda onun hazırkı mərhələsində (1994-cü ildən sonra) ön plana çıxan geosiyasi maraq və ziddiyyətlər bilavasitə tərəf dövlətlər olan Ermənistanın və Azərbaycanın hansı mövqe tutmalarından daha əhəmiyyətlidir. Odur ki, münaqişə ilə bağlı yekun qərarlar yerli səviyyədə deyil, beynəlxalq miqyasda qəbul edilcək.

Bu gün Azərbaycan Respublikasının dövlət və milli təhlükəsizliyi üçün başlıca təhlükə mənbəyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Bu münaqişə postsovet məkanında iki müstəqil dövlətin bilavasitə cəlb olunduğu yeganə münaqişədir. 1992-1996-cı illərdə Rusiya Federasiyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə vasitəçi missiyasının rəhbəri V.N.Kazimirov vurğulayıb ki, "Dağlıq Qarabağ münaqişəsi postsovet məkanında baş verən ilk, hərbi əməliyyatların genişliyinə görə isə ən irimiqyaslı münaqişədir. Onun konfiqurasiyası və dinamikası olduqca spesifikdir".[33]

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi "şöbəsinin müdiri Q.Ə.Hacıyev V.N.Kazimirovun fəaliyyətinə və

---

[32] Шевякин А.П. Загадка гибели СССР. История заговоров и предательств. 1945-1991. Москва, 2003, с.30.

[33] Казимиров В.Н. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта. Москва, 2009, с. 305.

yazdıqlarına münasibət bildirərkən qeyd edib ki, Rusiya Federasiyasının Minsk qrupundakı səlahiyyətli nümayəndəsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə "məşğul olmuş" "bitərəf vasitəçi" V.Kazimirov erməni müəlliflərinin ənənəvi yalan, böhtan və iftiralarla dolu əsərlərindən məzmun və mahiyyətinə görə heç bir fərqi olmayan kitabında münaqişənin səbəblərini şərh edərkən də eynilə "vasitəçilik" fəaliyyətindəki kimi təhrif-yanıltmaclara, çox ciddi səhvlərə yol vermişdir. Bu gün bəlli olduğu kimi, Dağlıq Qarabağ problemi bir sıra iri dövlətlərin siyasi dairələri tərəfindən süni şəkildə yaradılmışdır[34]. O da məlumdur ki, "vaxtilə böyük dövlətlərin iqtisadi və siyasi maraqlarından doğan bu proseslər XX əsrin əvvəllərindən etibarən aparılan etnik təmizləmə və ekspansiya siyasəti ilə davam etdirilmiş, DQMV də erməniپərəst bolşeviklər partiyası rəhbərlərinin və erməni ünsürlərin gizli məramı ilə bu məqsədlə yaradılmışdı". [35]

Təsadüfi deyil ki, akademik Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" adlı əsərində Dağlıq Qarabağ münaqişəsinin kökündə məhz Rusiyanın imperiyapərəst, şovinist dairələri ilə erməni millətçilərinin ittifaqının durduğu vurğulanmışdır. [36]

Eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi postsovet məkanında baş verən digər münaqişələrdən daha bir fəqri ən böyük geostrateji və ümumregional əhəmiyyət daşıması, bir çox daxili və xarici qüvvələrin onun həllində, yaxud da həll olunmamasında maraqlı olmasıdır.

Nəticədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi geosiyasi xarakter kəsb etmiş və Qafqazda, eləcə də onun ətrafında bir-birinə qarşı duran ittifaqların yaranmasına səbəb olmuşdur. Bu gün münaqişə Avrasiyanın yeni geosiyasətində mərkəzi rol oynamaqla, Qafqazın və bütövlüklə Orta Şərqin regional təhlükəsizliyi üçün artan təhdid mənbəyidir.

Azərbaycan Respublikasının ümumi vəziyyəti də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bilavasitə və olduqca ciddi şəkildə əlaqəlidir. "Azərbaycanın mövcud problemi dövlət daxilində beş klassik sektorun (hərbi, siyasi, iqtisadi, ictimai sektorlar və ətraf mühit) hər birində kifayət qədər nəzərə çarpan miqyasdadır. Onların respublikanın milli

---

[34] Hacıyev Q.Ə., Nuriyev S.Ş. Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti. Elmi red. C.Ə.Bəhramov. Bakı: Təknur, 2011, 131 s.

[35] Hacıyev Q.Ə. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Elmi red. akademik İ.Hacıyev. Bakı, Təknur, 2014, 266 s.

[36] Ramiz Mehdiyev. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı, 2000, 203 s.

təhlükəsizliyinin cari vəziyyətinə təsiri kəskinləşmənin ən böyük potensial dərəcəsinə və xaricdən məqsədyönlü manipulyasiya imkanına əsasən dəyərləndirilməlidir”.[37]

Bununla əlaqədar əslən qafqazlı olan, yəni həm beynəlxalq, həm də regional vəziyyəti yaxşı bilən Qərb eksperti A.Avtorxanovun bitərəf fikirlərini misal çəkmək yerinə düşər. Bu fikir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bilavasitə bağlıdır: “Ermənistanın faciəsi Dağlıq Qarabağın 1923-cü ildə Stalin tərəfindən Azərbaycanın tərkibinə daxil edilməsində deyil, Qafqazın müstəqil milli respublikalarının 1920-ci ildə Lenin tərəfindən Qırmızı Ordunun süngüləri vasitəsilə işğal və ilhaq edilməsindədir”.[38]

Son söz ermənilərin Rusiya imperiyası tərəfindən Cənubi Qafqaza, ilk növbədə Şimali Azərbaycana kütləvi və məqsədyönlü şəkildə köçürülməsinin geosiyasi nəticələrinə həsr olunub.

XIX əsrin 30-cu illərindən başlayaraq özünü büruzə verməyə başlayan həmin nəticələr 180 ildən artıqdır ki, Qafqazda və qonşu bölgələrdə hərbi-siyasi, sosial-iqtisadi, etnik-demoqrafik, ərazi və informasiya, mədəni və əxlaqi-mənəvi vəziyyətə əhəmiyyətli dərəcədə mənfi təsir göstərməkdədir. Ermənilərin Qafqaza gəlməsinin və buradakı fəaliyyətinin nəticələri üç mərhələdən ibarətdir.

Birinci mərhələ: XIX əsr – XX əsrin əvvəli, Rusiya imperiyasının dövrü. Həmin dövrdə aşağıdakı hadisələr baş verib:

- Azərbaycanın şimal xanlıqlarının ləğvi;
- Osmanlıdan və İrandan ermənilərin Qarabağ, Borçalı, Samtsxe-Cavaxeti, Tao-Klarceti bölgələrinə, Bakı, Gəncə, Tiflis, Batumi, Suxumi, Şamaxı, Qori və Kutaisi şəhərlərinə, yəni daha çox Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi;
- Cənubi Qafqazda xristianlığın yayılması və yerli müsəlman əhalinin xüsusi çəkisinin azaldılması;
- Qafqazda “kilsə-partiya-diaspor” erməni triadasının meydana gəlməsi;
- “Erməni vilayəti”nin yaranması və “dənizdən dənizə Böyük Ermənistan” şüarını bərpa etmək cəhdləri.

---

[37] Эйвазов Д. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004, с. 212.

[38] Авторханов А.Г. Империя Кремля. Советский тип колониализма. Гармиш Партенкирхен, 1988, с. 393,

İkinci mərhələ: XX yüzillik – Rusiya imperiyasının dağılması və SSRİ dövrü. Həmin dövrdə aşağıdakı hadisələr baş vermişdir:

- Azərbaycan torpaqlarında Ararat Respublikasının yaradılması və "dənizdən dənizə Böyük Ermənistan" xülyasının erməni triadası ilə birlikdə növbəti dəfə qabardılması;
- Ermənilərin Azərbaycan Xalq Cümhuriyyətinə qarşı iki dəfə, Gürcüstan Demokratik Respublikasına qarşı bir dəfə elan olunmamış müharibə aparması;
- Azərbaycanlıların, eləcə də rus, gürcü və müsəlman kürdlərin yüzillik boyu "Qafqaz Ermənistanı"ndan tədricən deportasiya edilməsi;
- Qərbi Azərbaycan torpaqlarında, indiki Ermənistan ərazisindəki yerli toponimikasının tamamilə erməniləşdirilməsi;
- Azərbaycanın başqa torpaqlarının da hissə-hissə işğalı;
- Erməniliyin Qarabağ, Naxçıvan, Borçalı, Samtsxe-Cavaxeti və Tao-Klarceti bölgələrini ələ keçirmək üçün "dinc" səylər göstərməsi;
- İ.Stalin, A.Mikoyan, L.Beriya, Y.Andropov və M.Qorbaçov kimi "Kremldəki qafqazlılar"ın ermənilərə dəstək verməsi;
- Ararat Respublikasının varisi və "dənizdən dənizə Böyük Ermənistan" şüarının qabardılmasında erməni triadası üçün tərəfdaş olaraq Ermənistan SSR-in yaradılması;
- Ermənistanın Azərbaycana qarşı sayca üçüncü müharibəyə başlaması.

Üçüncü mərhələ: postsovet mərhələsi, 1991-ci ildən bu günədək:

- Ararat Respublikası və Ermənistan SSR-in varisi olan Ermənistan Respublikası tərəfindən "dənizdən dənizə Böyük Ermənistan" planının erməni triadası ilə birlikdə həyata keçirmək cəhdlərinin davam etdirilməsi;
- Ermənistanın Azərbaycana qarşı aparılan üçüncü müharibə nəticəsində Qarabağ bölgəsinin işğalı və qondarma "Dağlıq Qarabağ respublikası"nın elan olunması;

Cənubi Qafqazda ermənilik ideyalarının başlıca dəstəkçisi və həm də icraçısı məhz Rusiya imperiyası olmuşdur. Çünki məhz Rusiya 1828-ci ildə Azərbaycanın Naxçıvan və İrəvan xanlıqlarının əraziləri hesabına ermənilərin növbəti "vətən"inin yaranmasına səbəb olmuşdur;

- Rusiyanın strateji maraqlarını təmin etmək üçün Osmanlı və İran ermənilərinin Cənubi Qafqaza, ilk növbədə Şimali Azərbaycan torpaqlarına məqsədyönlü və mütəşəkkil surətdə köçürülməsini təşkil etmişdir;

• Cənubi Qafqazın xristianlaşdırılması və müsəlmanların xüsusi çəkisinin azaldılması planlarının həyata keçirilməsində öz müttəfiqi və köməkçisi olan erməniləri himayə etmişdir;

• Cənubi Qafqazdakı planlarını həyata keçirmək üçün istifadə etdiyi "kilsə-partiya-diaspor" erməni triadasının havadarı olmuşdur.

Çar Rusiyasının eyni ilə SSRİ dövründəki siyasətini bu gün də Rusiya Federasiyası davam etdirir.

Bu tədqiqatın başlıca nəticələri aşağıdakılardan ibarətdir:

1. "Qafqaz Ermənistanı" olaraq ermənilərin növbəti "vətən"i süni şəkildə meydana gəlmişdir;

2. Ermənilərin əcdadları Qafqaza gəlmədirlər;

3. Ermənilərin Cənubi Qafqazda kütləvi şəkildə məskunlaşması Rusiya imperiyasının geosiyasi planlarının nəticəsidir;

4. Rus qafqazşünasları ermənilərin Qafqaza kütləvi şəkildə köçürülməsini mənfi qiymətləndirmişlər, çünki ermənilərin burada dövlət qurmaq məqsədilə hər cür üsullara əl atmalarından narahat idilər;

5. Ermənilərin Qafqazda məskunlaşması ilə ideologiya-siyasət-maliyyənin vəhdətinə arxalanan "kilsə-partiya-diaspor" erməni triadasının əsası qoyuldu. Bu triada siyasi-dini, mədəni-ideoloji, hərbi-terror fəaliyyətlərinin aktoruna çevrildi;

6. Erməni triadası başlanğıcdan bu günədək qonşu ölkələr olan Azərbaycan, Gürcüstan, Türkiyə və hətta Rusiyaya qarşı əsassız ərazi iddialar irəli sürür;

7. Erməni triadası tarixən və bu gün Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü təhdid edir.

Yuxarıda göstərilənlər dövlətlərarası və milli münasibətlərin geosiyasətin aktual problemləri sırasında yer alması barədə məşhur mülahizəni təsdiq edir. Belə bir nəticə həm uzaq keçmişə, həm də sonrakı dövrlərə və indiki zamana şamil olunur.

Bu mülahizə müasir dünyanın bir çox güc mərkəzlərinin geostrateji mənafelərinin cəmləşdiyi Qafqazda daha əyani şəkildə təsdiq olunur. Bu regionda "ermənilik-Rusiya-Qafqaz" üçbucağındakı münasibətlər 200 ildən çoxdur ki, gündəmdə əhəmiyyətli rola malikdir. Həmin münasibətlər çərçivəsindəki çöxşaxəli proseslər Şimali və Cənubi Qafqaz, yəni Rusiya, Azərbaycan və Gürcüstan ərazilərində cərəyan edir. Lakin ermənilərin inadla və daimi şəkildə qabartdıqları Dağlıq Qarabağ, Naxçıvan, Cavaxeti və Borçalı problemləri hazırda daha mürəkkəb səciyyə daşıyır. Belə bir vəziyyətdə erməni triadası XIX əsrdən başlayaraq hər cür vasitələrə əl atır, ermənilıyə bu və ya digər şəkildə dəstək verənlərə arxalanır. Məhz "kilsə-

partiya-diaspor" triadasının səyləri nəticəsində ermənilərin Qafqazda, xüsusən də "ermənilik-Rusiya-Qafqaz" üçbucağında rolu və əhəmiyyəti həmin dövrdən etibarən get-gedə daha çox nəzərə çarpırdı.

Qədimdə deyirdilər ki, hər xalq öz aqibətinə layiqdir. Hər xalqın öz taleyi, öz tarixi olduğu kimi, bu günü və gələcəyi də var. Bunlar onun keçdiyi yolun, qarşısına qoyduğu məqsədlərin və nailiyyətlərinin nəticəsidir. Eyni zamanda bunlar konkret xalqın səciyyəvi xüsusiyyətlərinin – onun maddi və mənəvi mədəniyyətinin, tarixi inkişafının, şüur və mentalitetinin, dini etiqadının da nəticəsidir. Xalqın xarakteri ilə yanaşı, onun digər xalqlarla münasibətləri, qurduğu dövlət, yaşadığı ərazi də mühüm əhəmiyyət daşıyır. Çünki istənilən xalq onu digərindən fərqləndirən müstəsna, özünəməxsus xüsusiyyətlərə malikdir.

Ermənişünaslar öz xalqlarının keçmişi ilə bağlı "öz tarixi vətənlərində qalmış ermənilər" tərifindən istifadə edirlər. Hərçənd hazırda onlar Balkan yarımadasındakı Frakiya bölgəsini vətən kimi qəbul etmirlər. Onlar hansısa xəyali "Ermənistan"ı "ermənilərin tarixi vətəni" hesab edir və hər dəfə hansısa konkret siyasi (elmi deyil) məqsəd naminə həmin bu "Ermənistan"ı göstərirlər. Məhz bu səbəbdən "ermənistan"ların sayı bu qədər çoxdur. Ona görə də ermənişünaslar ermənilərin keçmişdə daha çox yadellilərin hökmranlığı şəraitində keçməsi qənaətinə gəlmişlər.[39] Ola bilsin, həmin amil erməni etnosunun taleyi, xarakteri, mentaliteti və "etnos" tərifini müəyyən edən digər mühüm elementlərə güclü təsir göstərmişdir. Göstərilənlərə istinadən aşağıdakı mühüm suallar yaranır:

- Bir xalq nə ifadə edir?
- Onun taleyi, tarixi necədir?
- Onu kim, nə ilə, haraya və necə aparır?
- Nə üçün ermənilər Qafqazın avtoxtonları deyil?
- Nə üçün erməni xalqı öz bələdçisi olan "kilsə-partiya-diaspor"a itaət edən kütləyə çevrilmişlər?
- Bələdçilər bu xalqı əsatir və əfsanələr vasitəsilə necə aldadır?
- Nə üçün bələdçilər onların arxasınca gedən bu insanlara həqiqəti söyləmir?
- Bələdçilərin öz xalqına təlqin etdikləri yalanın nəticəsi nədən ibarətdir?
- Nə üçün xalq ayılıb keçmişini olduğu kimi görə bilmir?

---

[39] Саркисян Г.Х. и др. Указ.раб., с. 5.

Bu tədqiqatda yuxarıda qoyulmuş suallara cavab verməyə çalışmışıq. Bu zaman müxtəlif ilkin mənbələrə, həmçinin türk, rus, erməni və Qərb müəlliflərinin əsərlərinə istinad etmişik.

Dissertasiyanın əsas mövzusu müəllifin aşağıdakı yazılarında öz əksini tapmışdır:

1. Карабахская проблема с позиций геополитики: аналитический ракурс. С.-Петербург, «Книжный Дом», 2009, 35 с.

2. Армянство. Россия. Кавказ. Москва, «Флинта», 2010, 93 с.

3. Армянства. Расія. Кауказ. Минск, «Выдавец А.М.Вараксін», 2010, 91 с.

4. Армянство. Россия. Кавказ. 2-е издание. Москва, «Флинта», 2011, 93 с.

5. Armenians. Russia. The Caucasus. Dubai, "Khazar UP", 2011, 77 p.

6. Одна из историй и антиисторий Кавказа. Москва, «Маросейка», 2012, 154 с.

7. Армянский экспансионизм-источник угрозы стабильности в регионе / В книге: Карабах вчера, сегодня и завтра. Вторая часть. Баку, 2009, с. 123-126.

8. О появлении армян на Северном Кавказе // Журнал «Dirçəliş XXI əsr», Баку, 2010, №141/142, с. 218-227.

9. Historia Karabaj // Revista "IRS-Herencia", Argentina, 2012, №1(3), p. 4-11.

10. Армянство и Карабахская проблема с позиций геополитики: аналитический ракурс / İnsan Hüquqları İnstitutunun 15 illiyinə həsr olunmuş "Soyqırımı və terror erməni ideologiyasının əsas amilləri kimi" beynəlxalq konfransın tezislər toplusu. Bakı, 2013, s. 136-138.

11. Ermənilər "qafqazlı" deyillər // "Tarix, insan və cəmiyyət" jurnalı, Bakı, 2015, № 1, s. 62-68.

12. Ermənişünasların Naxçıvan barədə növbəti yalanları / Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. 04-05 iyul 2014-cü ildə keçirilmiş beynəlxalq konfransın materialları. Naxçıvan: Əcəmi, 2015, s. 132-137.

13. Территориальные преступления армян против азербайджанского народа // Кавказ и мир. Международный журнал. №21, с. 51-61.

**Муса Фехруз оглы Исмаилов**

# ПЕРЕСЕЛЕНИЕ АРМЯН НА ЮЖНЫЙ КАВКАЗ И ЕГО ЭТНО-ПОЛИТИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ

## Резюме

Многовекторные процессы на Кавказе в XIX-начале XXI веков состоят из ряда этапов, связанных с характером взаимоотношений великих держав и крупных региональных государств с местными политическими структурами, а также с геополитическими событиями, имеющими эпохальное значение для Кавказского мегарегиона.

В числе этих событий – появление в первой трети XIX века на Кавказе значительной массы армян, что имело негативные последствия для местного населения, в первую очередь мусульманского.

Армяне, прошедшие длительный, многовековый и тернистый путь из Европы в Переднюю Азию, в том числе на Кавказ, постоянно предпринимали попытки арменизировать территории, государства, племена, этносы, с которыми они контактировали. Об этом можно судить уже по тому, что ныне в истории армянского народа известно множество «армений», которые позволяют конкретизировать «армянский маршрут» в восточном направлении: с Балкан, то есть из Европы, в Малую Азию и далее на восток, вплоть до Южного Кавказа.

С этих не простых и принципиальных позиций в нашем исследовании всесторонне и кардинально рассмотрены многовекторные события и их последствия.

Это – переселение армян на Южный Кавказ, последствия этого для Северного Азербайджана и азербайджанцев, многоликая антиазербайджанская преступная и террористическая деятельность армянства, Карабахская проблема с позиций геополитики, а также геополитические последствия переселения и деятельности армян на Южном Кавказе.

**Musa Fekhruz oglu Ismailov**

# ARMENIAN RESETTLEMENT TO SOUTH CAUCASUS AND ITS ETHNO-POLITICAL IMPLICATIONS

## Summary

The multi-vector processes in the Caucasus in the 19th and early 21st centuries involved a number of stages related to the nature of relations of superpowers and major regional states with local political structures, as well as the geopolitical events that have had huge importance to the Caucasus region.

Among these events is the appearance of a significant mass of Armenians in the Caucasus in the first third of the 19th century, which had negative consequences for the local population, primarily Muslims.

The Armenians, who have passed a centuries-long and thorny path from Europe to the Near East, including the Caucasus, constantly attempted to Armenianize the territories, states, tribes and ethnic groups with which they were in contact. This is confirmed by the fact that the history of the Armenian people knows a lot of "Armenias" which enable identification of the "Armenian route" eastwards: from the Balkans, i.e. from Europe, to Asia Minor and further east all the way to the South CaucasusС этих не простых и принципиальных позиций в нашем исследовании всесторонне и кардинально рассмотрены многовекторные события и их последствия.

It is from these complex and principled positions that our study comprehensively and radically reviews the multidirectional events and their repercussions.

This is the Armenian resettlement to the South Caucasus, its implications for Northern Azerbaijan and the Azerbaijanis, the many-sided anti-Azerbaijani criminal and terrorist activities of the Armenians, the Karabakh problem from a geopolitical standpoint and geopolitical consequences of Armenian resettlement and activities in the South Caucasus.

Çapa imzalanmışdır: 22.01.2016
Formatı: 60/84, 16/1
Sifariş: 90
Sayı: 100

*AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.*

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**МУСА ФЕХРУЗ оглы ИСМАИЛОВ**

# ПЕРЕСЕЛЕНИЕ АРМЯН НА ЮЖНЫЙ КАВКАЗ И ЕГО ЭТНО-ПОЛИТИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени**
**доктора философии по истории**

**НАХЧЫВАН – 2016**